mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifov, Bakı Apellyasiya Məhkəməsinin Hərbi Kollegiyasının sədri Faiq Qasımov və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Hüquq və lisenziyalaşdırma departamentinin Hüquqi təminat idarəsinin aparıcı hüquqşünası Tural Hacıbəylinin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 109-cu maddəsi baxımından həmin Məcəllənin 128-ci maddəsinin şərh edilməsinə dair Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Sumqayıt Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - İnzibati Xətalar Məcəlləsi) 109-cu maddəsinə əsasən çıxarılmış qərardadlardan şikayət vermək hüququnun olub-olmaması baxımından həmin Məcəllənin 128-ci maddəsinin şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, Sumqayıt Apellyasiya Məhkəməsinə İnzibati Xətalar Məcəlləsinin 109.1.6-cı maddəsinə əsasən, inzibati xəta haqqında iş üzrə "Az İmport" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - "Az İmport" MMC) barəsində həmin Məcəllənin 430.4-cü maddəsinin pozulmasına dair tərtib edilmiş inzibati protokolun onu tərtib etmiş Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına (bundan sonra - Maliyyə Bazarlarına Nəzarət Palatası) geri qaytarılması barədə Sumqayıt Şəhər Məhkəməsinin 19 sentyabr 2018-ci il tarixli qərardadından şikayət daxil olmuşdur.

İnzibati xəta haqqında iş üzrə materiallardan məlum olur ki, "Az İmport" MMC 6 noyabr 2017-ci il tarixində qabaqcadan ödəniş etməklə 588.690 Rusiya rublu məbləğində pul vəsaitini Azərbaycan Respublikasından kənara köçürmüş və ödəniş aparılmasından 270 gündən artıq müddət keçsə də, həmin pul məbləğində alınan malların ölkəyə idxalını təsdiq edən sənədləri banka təqdim etməmişdir. Bunun nəticəsində Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən "Az İmport" MMC haqqında İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinə əsasən inzibati xəta haqqında 7 sentyabr 2018-ci il tarixli protokol tərtib edilmiş və həmin protokol toplanmış sənədlərlə birlikdə baxılması üçün Sumqayıt Şəhər Məhkəməsinə göndərilmişdir.

Sumqayıt Şəhər Məhkəməsi 19 sentyabr 2018-ci il tarixli qərardadı ilə İnzibati Xətalar Məcəlləsinin 109.1.6-cı maddəsini rəhbər tutaraq inzibati xəta haqqında protokolun düzgün tərtib edilmədiyini əsas gətirmiş və iş materiallarını Maliyyə Bazarlarına Nəzarət Palatasına geri qaytarmışdır.

Maliyyə Bazarlarına Nəzarət Palatası Sumqayıt Şəhər Məhkəməsinin qeyd edilən qərardadından apellyasiya şikayəti verərək həmin qərardadın ləğv edilməsini xahiş etmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsi Konstitusiya Məhkəməsinə ünvanladığı müraciətdə qeyd etmişdir ki, İnzibati Xətalar Məcəlləsində inzibati xətalar üzrə qəbul edilmiş qərardadlardan apellyasiya şikayətinin verilməsi nəzərdə tutulmamışdır. Belə ki, həmin qərardadlar inzibati xətalar haqqında işi mahiyyəti üzrə həll etmir.

Sumqayıt Apellyasiya Məhkəməsi müraciətdə qaldırılan məsələ ilə bağlı məhkəmə təcrübəsində fərqli yanaşmaların olduğunu nəzərə alaraq Konstitusiya Məhkəməsi tərəfindən İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin şərh edilməsini məqsədə müvafiq hesab etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə İnzibati Xətalar Məcəlləsinin 109-cu maddəsi baxımından həmin Məcəllənin 128-ci maddəsinin şərh olunması xahiş edilsə də, məsələnin daha dolğun həll edilməsinə nail olmaq üçün İnzibati Xətalar Məcəlləsinin məhz 128-ci maddəsi baxımından həmin Məcəllənin 109-cu maddəsinin şərh edilməsi daha məqsədəmüvafiqdir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, müraciətdə qaldırılan məsələyə aydınlıq gətirilməsi üçün, ilk növbədə, inzibati məsuliyyəti müəyyən edən inzibati xətalar qanunvericiliyinin mahiyyəti, vəzifəsi və prinsipləri nəzərdən keçirilməlidir.

İnzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir (İnzibati Xətalar Məcəlləsinin 2-ci maddəsi).

İnzibati Xətalar Məcəlləsinin 4-cü maddəsində inzibati qanunvericiliyin prinsiplərindən bəhs olunur. Belə ki, Məcəllə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır.

Həmin Məcəllənin 6-cı maddəsində bəhs olunan qanunçuluq prinsipinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir. Bu prinsipə əsasən, inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar insan hüquq və azadlıqlarını qanunsuz məhdudlaşdırılmasından çəkinməklə yanaşı, cəmiyyətdə inzibati sahədə qanunçuluğun təmin edilməsini həyata keçirməlidirlər.

İnzibati Xətalar Məcəlləsinin qanunçuluq prinsipinin əsasını təşkil edən Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə, 71-ci maddəsinin I və X hissələrinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər. Konstitusiyanın qeyd olunan normaları insan hüquq və azadlıqlarının müdafiə vasitələri ilə yanaşı, həmin hüquqların təminatı kimi cinayət, inzibati-delikt və digər repressiv və preventiv hüquq sahələrinin qoruyucu normalarının mövcudluğunu da nəzərdə tutur. Hər bir dövlət orqanı öz səlahiyyətləri çərçivəsində insan hüquq və azadlıqlarını qorumaq şərti ilə qanunçuluğu təmin etməlidir.

Beləliklə, inzibati xətalar qanunvericiliyi səlahiyyətli orqanla fiziki və hüquqi şəxslər arasında inzibati xətalarla bağlı yaranan münasibətləri tənzimləyir. Bu münasibətlərdə tərəflərdən biri kimi dövlət orqanı və ya qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş hər hansı bir publik subyekt çıxış edir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 5 mart tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə görə, inzibati xətalar sahəsində yaranan münasibətlər təbiətinə görə repressiv (tənbehləndirici) və preventiv (xəbərdaredici) xarakter daşıyır. Çünki səlahiyyətli orqan (vəzifəli şəxs) xəta törətmiş subyektə qarşı məcburiyyət tədbirlərini tətbiq edərkən inzibati xarakterli məcburetmə səlahiyyətlərinə malikdir. İnzibati xətalar qanunvericiliyi (inzibati-delikt hüququ) təbiətinə görə cinayət qanunvericiliyinə daha yaxındır. Bu hüquq sahələri müəyyən etdikləri qanun pozuntularının ictimai təhlükəliliyi dərəcəsinə görə fərqlənir. İnzibati-delikt normalarının cinayət qanunvericiliyi normalarından fərqi birincinin nisbətən yüngül ictimai təhlükəli əməlləri qadağan etməsi ilə əlaqədardır.

İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, inzibati xətalar haqqında işlər üzrə icraat ümumi qaydada xüsusi mərhələlərə ayrılır. Bu mərhələlərə aşağıdakıları aid etmək olar:

- inzibati xəta haqqında iş üzrə icraatın başlanması;
- inzibati araşdırma;
- protokola (prokurorun qərarına) baxılması;
- inzibati xətalar haqqında işlərə apellyasiya qaydasında baxılması;
- qərarın icrası (inzibati tənbehin tətbiqinə dair icraat).

İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) siyahısı İnzibati Xətalar Məcəlləsinin 40-cı maddəsində göstərilmişdir. Həmin maddəyə əsasən, inzibati xətalar haqqında işlərə:

-rayon (şəhər) məhkəmələri;

-yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan);

-Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Mərkəzi Bank, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum (vəzifəli şəxslər) baxırlar.

İnzibati Xətalar Məcəlləsinin 48-ci maddəsinə əsasən, bu icraatın vəzifələri şəxslərin hüquqlarını və azadlıqlarını, onların qanuni mənafelərini qorumaqdan, inzibati xəta haqqında hər bir işin hallarını vaxtında, hərtərəfli, tam və obyektiv surətdə aydınlaşdırmaqdan, inzibati xəta törətmiş şəxsi aşkar etməkdən və onu inzibati məsuliyyətə cəlb etməkdən, çıxarılmış qərarın icrasını təmin etməkdən, habelə inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti aşkar etməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

İnzibati xətalar qanunvericiliyində göstərilən digər orqan və vəzifəli şəxslərdən fərqli olaraq, rayon (şəhər) məhkəmələri tərəfindən nisbətən böyük ictimai təhlükəli olan və daha ağır sanksiya ilə nəticələnə biləcək inzibati xətalara dair işlərə baxılır.

İnzibati Xətalar Məcəlləsinin 43-cü maddəsi rayon (şəhər) məhkəmələri tərəfindən baxılan inzibati xətalar haqqında işlərin dairəsini müəyyən edir. Məcəllənin 43.3-cü maddəsinə görə, bu Məcəllənin 43.1-ci maddəsində göstərilən inzibati xətalar haqqında işlərə baxmaq hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən, həmçinin səlahiyyətli orqanlara (vəzifəli şəxslərə) aid edildikdə, icraatında inzibati xətalar haqqında iş olan səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın xarakterini, inzibati xəta törədənin şəxsiyyətini, onun təqsirinin dərəcəsini, məsuliyyəti ağırlaşdıran halların və müsadirə olunmalı malların mövcudluğunu nəzərə alaraq, şəxs barəsində müvafiq maddənin sanksiyasında nəzərdə tutulan xəbərdarlıq və ya cərimə inzibati tənbeh tədbirlərindən daha ağır tənbeh tədbirinin tətbiqi üçün əsasların olması qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərir.

İnzibati xətalar qanunvericiliyinə əsasən, inzibati xəta haqqında işə baxarkən məhkəmə qərar və ya qərardad qəbul edir. Məcəllənin 114-cü maddəsinə müvafiq olaraq, inzibati xəta haqqında işə baxılarkən aşağıdakı məsələlər barəsində qərar çıxarılır:

- inzibati tənbeh vermə haqqında;
- inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında;
- inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında;
- inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında.

Eyni zamanda, İnzibati Xətalar Məcəlləsinin 115-ci maddəsində inzibati xəta haqqında iş üzrə qərarda hansı məsələlərin dəqiq göstərilməsi əks olunmuşdur. Bunlara inzibati xətaya görə məsuliyyət nəzərdə tutan Məcəllənin müvafiq maddəsi və inzibati xətaya görə tətbiq edilən inzibati tənbeh növü, qərardan şikayət verilməsi qaydası, müddəti və s. aiddir.

Göründüyü kimi, inzibati xəta haqqında iş üzrə icraatın yekununda məhkəmə tərəfindən şəxsin hüquq və azadlıqlarını məhdudlaşdıra biləcək qərar qəbul olunur. Həmin qərarda şəxsin hansı inzibati xəta törətməsi müəyyən edilərək müvafiq inzibati tənbeh tədbiri (inzibati cəza) seçilir və bunun hüquqi nəticələri öz əksini tapır. Məhz bu baxımdan inzibati xəta törətmiş fiziki, hüquqi və vəzifəli şəxs barəsində seçilən tənbeh tədbiri həmin şəxsin hüquq və azadlıqlarını məhdudlaşdırdığına görə, qanunverici belə tədbirdən müdafiə mexanizmləri müəyyən etmişdir. Bunların sırasında əsas yeri inzibati tənbehin tətbiqi ilə bağlı məhkəmələr tərəfindən qəbul edilən qərarlardan şikayət verilməsi institutu tutur.

İnzibati Xətalar Məcəlləsində inzibati tənbehin tətbiqi ilə bağlı səlahiyyətli orqanlar və məhkəmələr tərəfindən qəbul edilən qərarlardan şikayət və ya protest verilməsinin prosessual qaydaları nəzərdə tutulmuşdur. Belə ki, Məcəllədə inzibati xətalar haqqında işlər üzrə icraatın qanuniliyini, inzibati tənbehin tətbiqinin ədalətliliyini təmin etmək, ilkin icraat mərhələsində yarana bilən səhvlərin qarşısını almaq və ya digər qanuni məqsədlərə nail olmaq üçün proses iştirakçılarına yuxarı məhkəmə instansiyasına (apellyasiya məhkəməsinə) şikayət və ya protest vermək imkanı yaradılır.

Barəsində qərar çıxarılmış fiziki şəxs, yetkinlik yaşına çatmayanların qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi, zərər çəkmiş şəxs, müdafiəçi və nümayəndə, həmçinin bu Məcəllənin 43.2-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs inzibati xəta haqqında iş üzrə qərardan şikayət, prokuror isə protest verə bilər.

İnzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protest aşağıdakı qaydada məhkəməyə və ya səlahiyyətli orqana (vəzifəli şəxsə) verilir:

-hakimin qərarından - apellyasiya instansiyası məhkəməsinə;

-kollegial orqanın qərarından - kollegial orqanın olduğu yerin məhkəməsinə;

-səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından - yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə (İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsi).

İnzibati Xətalar Məcəlləsinin 129.1-ci maddəsində isə inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protestin verilmə qaydası müəyyən edilmişdir.

Beləliklə, qanunverici inzibati xəta haqqında iş üzrə qəbul edilən yekun sənəd olan qərardan şikayət verilməsinin qaydasını və belə şikayəti verə bilən subyektlərin dairəsini dəqiq müəyyən edərək bu hüquqa prosesin bütün iştirakçılarına aid etmişdir.

İnzibati xətalar haqqında işlərə baxılarkən qəbul edilən qərardadlarla bağlı isə aşağıdakılar qeyd edilməlidir.

İnzibati Xətalar Məcəlləsinin 109-cu maddəsinə görə, inzibati xəta haqqında işin baxılmağa hazırlanması zamanı aşağıdakı məsələlər barəsində qərardad qəbul edilir: işin baxılması tarixinin və yerinin təyin edilməsi, işin baxılmasında iştirak etmək üçün bu Məcəllənin 61-67-ci, 69-72-ci maddələrində göstərilən şəxslərin çağırılması, iş barəsində zəruri olan əlavə materialların tələb edilməsi, ekspertizanın təyin edilməsi, işə baxılmanın təxirə salınması, protokol və digər materiallar səlahiyyəti olmayan şəxslər tərəfindən tərtib edildikdə, protokol və digər sənədlər düzgün tərtib olunmadıqda, yaxud təqdim edilmiş materiallar natamam olduqda, işə baxılarkən tamamlamaq mümkün olmadıqda, inzibati xətalar haqqında protokolun və ya digər sənədlərin onu tərtib etmiş orqana, vəzifəli şəxsə geri qaytarılması, əgər bu məsələnin baxılması hakimin, orqanın (vəzifəli şəxsin) səlahiyyətinə aid deyildirsə, yaxud hakimə, kollegial orqanın üzvünə, vəzifəli şəxsə etiraz etmə barədə qərardad çıxarılmışdırsa, inzibati xəta haqqında protokolun və ya digər materialların baxılması üçün aidiyyəti üzrə göndərilməsi. Həmçinin qanunvericiliklə müəyyən edilmiş hallarda inzibati xətanın baxıldığı yer üzrə məhkəmə şəxslərin gətirilməsi barədə qərardad qəbul edə bilər.

İnzibati Xətalar Məcəlləsinin qərardadın mahiyyətini əks etdirən yuxarıda qeyd edilən ümumi normaları ilə yanaşı, konkret hallarda qərardadın qəbul olunması qaydaları həmin Məcəllənin ayrı-ayrı xüsusi normalarında nəzərdə tutulmuşdur. Məsələn, inzibati xətalar haqqında işlərin qapalı baxılmasına zərurət olduğu halda, vəsatətin təmin olunmasından imtina edildikdə, bu barədə; özü-özünə etiraz etmə və ya etiraz etmə haqqında ərizəyə baxaraq hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) etirazın təmin edilməsi və ya təmin edilməməsi barədə; icraatında inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) işin həll edilməsi üçün zəruri olan əlavə məlumatların tələb edilməsi barədə qərardad qəbul edə bilər. Fiziki şəxsin gətirilməsi inzibati xətanın baxıldığı yer üzrə məhkəmənin qərardadı əsasında onun yaşadığı və ya olduğu yer üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir (İnzibati Xətalar Məcəlləsinin 50.2, 52, 74.3, 82.1, 83.3 və 87.3-cü maddələri).

Yuxarıda qeyd edilən normalarda müəyyən olunduğu kimi, inzibati xəta haqqında iş üzrə icraat zamanı məhkəmə inzibati xətalar qanunvericiliyinin prinsiplərinin, xüsusilə də qanunçuluq prinsipinin qorunmasının təmin edilməsi, habelə Məcəllənin tələblərinə uyğun olan ədalətli qərarın qəbul edilməsi məqsədi ilə prosesin zəruri etdiyi hallardan çıxış edərək qərardadlar qəbul edir. Bu qərardadlarla məhkəmə etirazların və vəsatətlərin təmin edilib-edilməməsi, ekspertizanın təyin edilməsi, işlərin qapalı baxılması, əlavə materialların tələb edilməsi, inzibati xətalar haqqında protokolun və ya digər sənədlərin onu tərtib etmiş orqana, vəzifəli şəxsə geri qaytarılması və s. məsələləri həll edir.

Göründüyü kimi, İnzibati Xətalar Məcəlləsinin qərardadlardan bəhs edən nə ümumi, nə də xüsusi normalarında məhkəmə qərardadlarından şikayət verilməsi nəzərdə tutulmamışdır.

Qanunvericinin belə yanaşması onunla izah olunur ki, qərardad məsələni mahiyyəti üzrə həll etmir, şəxsin hüquq və azadlıqlarını məhdudlaşdırmır, mübahisənin gələcəkdə davam etdirilməsini istisna etmir, o, yalnız işin ədalətli həll olunmasına xidmət edir. Eyni zamanda, qanunverici, "prosessual qənaət" prinsipini rəhbər tutaraq məhkəmə prosesinin lüzumsuz olaraq uzanmasının qarşısını almaq məqsədi ilə hər bir qərardad üzrə şikayətin verilməsini mümkünsüz hesab etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu Sumqayıt Apellyasiya Məhkəməsi tərəfindən müraciətin verilməsinə səbəb olmuş inzibati xəta haqqında işlə bağlı qeyd edir ki, İnzibati Xətalar Məcəlləsinin 106-cı maddəsi inzibati xəta haqqında işin baxılmağa hazırlanması mərhələsində hakim, səlahiyyətli orqanın (vəzifəli şəxsin) hazırlıq mərhələsində həll etməli olduğu məsələlərin dairəsini müəyyən edir. Həmin maddəyə əsasən, hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətalar haqqında işlərə baxarkən aşağıdakı məsələləri həll edir: işin baxılması onun səlahiyyətinə aiddirmi; işin hakim, kollegial orqanın üzvü, vəzifəli şəxs tərəfindən baxılmasını istisna edən hallar mövcuddurmu; inzibati xəta haqqında protokol və işin digər materialları bu Məcəllənin tələblərinə müvafiq olaraq tərtib edilmişdirmi; işin icraatını rədd edən hallar mövcuddurmu; mahiyyəti üzrə baxılması üçün işdə kifayət qədər sübutlar toplanmışdırmı; işə baxılmasının yeri və vaxtı barədə işdə iştirak edən şəxslər məlumatlandırılıbmı; iş üzrə vəsatətlər və etiraz etmə vardırmı.

Həmin Məcəllənin 109.1.6-cı maddəsinə əsasən isə inzibati xətalar haqqında işə baxılmasına hazırlıq mərhələsində hakim tərəfindən protokol və digər materiallar səlahiyyəti olmayan şəxslər tərəfindən tərtib edildikdə, protokol və digər sənədlər düzgün tərtib olunmadıqda, yaxud təqdim edilmiş materiallar natamam olduqda işə baxılarkən tamamlamaq mümkün olmadıqda, inzibati xətalar haqqında protokol və ya digər sənədlər onu tərtib etmiş orqana, vəzifəli şəxsə geri qaytarıla bilər. Bu halda məhkəmə tərəfindən müvafiq qərardad qəbul edilir.

İnzibati Xətalar Məcəlləsində inzibati xəta haqqında protokolun tərtib olunmasının qaydası dəqiq göstərilmişdir və inzibati xəta haqqında işin baxılmağa hazırlanması zamanı hakim həmin protokolun məhz bu normanın tələblərinə uyğun tərtib edilib-edilmədiyini yoxlayır. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 100.1-ci maddəsinə əsasən, inzibati xəta haqqında protokolda aşağıdakılar göstərilir: protokolun tərtib edildiyi tarix və yer, protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumat, o cümlədən vətəndaşın fərdi identifikasiya nömrəsi, inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti, inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi və s.

Qeyd olunan maddələrin təhlilindən belə qənaətə gəlmək olar ki, protokol və digər sənədlərin düzgün tərtib olunmamasının, yaxud təqdim edilmiş materialların natamam olmasının elə halları mövcud ola bilər ki, hakim belə qüsurlu protokola ümumiyyətlə mahiyyəti üzrə baxa bilməsin. Məsələn, protokolda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumatın, o cümlədən vətəndaşın fərdi identifikasiya nömrəsinin göstərilməməsi həmin protokola baxılmasını mümkünsüz edə bilər. Bu halda hakim protokolun və ya digər sənədlərin onu tərtib etmiş orqana, vəzifəli şəxsə qaytarılması barədə əsaslandırılmış qərardad qəbul etməkdə haqlıdır. Eyni zamanda, inzibati xətalar qanunvericiliyində həmin protokolun bu Məcəlləyə uyğun tərtib edilərək yenidən məhkəməyə göndərilməsi istisna edilməmişdir.

Lakin protokolda xüsusi əhəmiyyət kəsb etməyən səhvlər olduqda və işə baxılarkən onları tamamlamaq mümkün olduqda məhkəmə protokolu geri qaytarmamalıdır. Bu zaman məhkəmə protokolu və ya digər sənədləri tərtib etmiş orqandan, vəzifəli şəxsdən bunu düzəltməsini tələb edə bilər. Bu, İnzibati Xətalar Məcəlləsinin 109.1.6-cı maddəsinin tələblərindən də irəli gəlir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunvericinin məsələyə belə yanaşması məhz "prosessual qənaət" prinsipinin qorunmasına, inzibati xəta haqqında işin əsassız olaraq uzanmamasına, işlərə ağlabatan müddətlərdə baxılması prinsipinin və son nəticədə ədalətli məhkəmə araşdırılmasının təmin edilməsinə xidmət edir. Bu, öz növbəsində, inzibati xətalar qanunvericiliyinin prinsiplərinə də uyğundur.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, inzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən İnzibati Xətalar Məcəlləsinin tələblərinə dəqiq riayət etməlidir. Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə "prosessual qənaət" və "işlərə ağlabatan müddətdə baxılması" prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl, həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.

Qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul edilən qərardadlardan apellyasiya şikayəti vermək hüququ istisna edilir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### QƏRARA ALDI:

**1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul edilən qərardadlardan apellyasiya şikayəti vermək hüququ istisna edilir.

**2.** İnzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin tələblərinə ciddi riayət etməlidir.

Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə "prosessual qənaət" və "işlərə ağlabatan müddətdə baxılması" prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl, həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad ABDULLAYEV.**

# Bakı Dövlət Universitetində Füyuzat Mərkəzinin açılışı olub







**Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi münasibətilə jurnalistika fakültəsində Füyuzat Mərkəzinin açılış mərasimi olub.**

BDU-dan AZƏRTAC-a bildiriblər ki, mərasimdə bu ali məktəbin Elm və innovasiyalar üzrə prorektoru, professor Aydın Kazımzadə universitet və Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondunun (MİMTA) birgə layihəsi əsasında qurulan Füyuzat Mərkəzinin tələbə və müəllimlər üçün yaradacağı imkanlardan danışıb. Gənc nəslin intellektual və mənəvi inkişafının təmin edilməsinin, ictimai fəallığının artırılmasının dövlətin daim diqqət mərkəzində olduğunu vurğulayan A.Kazımzadə tələbələrin yüksəkixtisaslı mütəxəssis kimi formalaşması, onların sürətlə dəyişən əmək bazarında rəqabətədavamlı olmaları üçün belə mərkəzlərin yaradılmasının əhəmiyyətini qeyd edib.




Füyuzat Mərkəzinin əsas məqsədinin xalqımızın milli-mənəvi dəyərlərini, irsini, mədəniyyətini qoruyub saxlamaq və inkişaf etdirmək, tələbələrin bilik və bacarıqlarını artırmaq, istedadlı gənclərin inkişafına yardım göstərmək olduğunu deyən A.Kazımzadə qurumun Azərbaycan mediasının inkişafı naminə peşəkar jurnalistlərin hazırlanması istiqamətində səmərəli fəaliyyət göstərəcəyinə əminliyini ifadə edib.

"Respublika" qəzetinin və "Füyuzat" jurnalının baş redaktoru, professor Teymur Əhmədov mərkəzin fəaliyyətə başlamasını əlamətdar hadisə adlandırıb. Bildirilib ki, mərkəz, eyni zamanda, BDU-nun tələbə və magistrantlarının MİMTA-da təcrübə keçməsi və işə cəlb olunması məsələlərini diqqətdə saxlayacaq.

MİMTA Fondunun icraçı direktoru Pərviz Əmirov mərkəzin fond üçün önəmi və qarşıda duran vəzifələri haqqında fikirlərini bölüşüb.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev mərkəzin tələbələrin inkişafına böyük töhfələr verəcəyinə əminliyini bildirib. Qeyd edilib ki, Füyuzat Mərkəzinin fəaliyyət planında Azərbaycan mətbuatı tarixinin öyrənilməsi, maarifləndirici tədbirlərin, BDU müəllimlərinin mühazirələrinin təşkili, MİMTA Fondu əməkdaşlarının müxtəlif mövzular üzrə təlimlərinin keçirilməsi nəzərdə tutulur.

Mərkəzin əlaqələndiricisi Afaq Sadıqova mərkəzdə onlayn media, nəşriyyat-poliqrafiya işləri ilə bağlı dərnək və kursların qurulması, "Füyuzat" və "İşıq" jurnallarının yazarları, eləcə də elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat sahəsində xidmətləri olan ziyalılarla tələbələr arasında görüşlərin keçirilməsinin də yer alacağına diqqət çəkib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, şərqşünas alim Allahşükür Qurbanov, BDU-nun jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli, "Füyuzat" jurnalının məsul katibi Mübariz Yunus və digər çıxış edənlər Füyuzat Mərkəzinin fəaliyyətinə uğurlar arzulayıblar.

Qeyd edək ki, MİMTA Fondu və BDU-nun anlaşma layihəsi əsasında təşkil olunmuş mərkəzin qurulmasına 2017-ci ildə - "Füyuzat" jurnalının 110 illiyi ərəfəsində başlanılıb.

**AZƏRTAC**

# TƏLƏBƏLƏR İMTAHAN SESSİYASINDA TƏTBİQ EDİLƏCƏK QAYDALAR BARƏDƏ MƏLUMATLANDIRILIB



**Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov ənənəvi olaraq imtahan sessiyaları ərəfəsində ali təhsil müəssisəsinin müvafiq ixtisaslarında təhsil alan tələbələr ilə görüşüb, müraciətlərini dinləyib, problemləri ilə maraqlanıb.**

Görüşün təşkilində əsas məqsəd 2018-2019-cu tədris ilinin yaz semestri imtahanlarına tələbələrin hazırlıq səviyyəsini öyrənmək və onların qarşılaşa biləcəkləri çətinliklərin operativ həllinə nail olmaq, həmçinin bu semestrdə tətbiq ediləcək qaydalar barədə tələbələri məlumatlandırmaqdır. Belə ki, 2018/2019-cu tədris ilinin yaz semestri imtahanlarında tətbiq ediləcək çoxsaylı, əsaslı yeniliklər mövcuddur. Təhsil prosesində mənimsənilmiş bilik və bacarıqların daha düzgün, xüsusən də şəffaf imtahan prosesinin təşkili vasitəsilə qiymətləndirilməsinin vacibliyindən danışan professor Yusif Yusibov bildirib ki, bundan sonra da imtahan prosesinin müasir təcrübə əsasında təşkili və idarə edilməsi üçün zəruri və təsirli yeniliklər, başlıcası isə tələbələrin məmnuniyyəti təmin ediləcək. Tələbələrin imtahanlara hazırlaşa bilməsi üçün imtahan qəbul ediləcək bütün fənlərin mühazirə mətnləri, dövlət imtahanına düşəcək fənlər üzrə suallar universitetin saytında (www.gdu.edu.az) elektron formada yerləşdirilib. Yaz və payız sessiyaları müddətində imtahanların gedişatı zamanı yarana biləcək münaqişəli halların aradan qaldırılması və lazımi tədbirlərin görülməsi məqsədilə universitet üzrə "Apelyasiya komissiyası", Təhsil Nazirliyinin "Qaynar xətt" xidməti ilə əlaqə yaratmaq və sessiyanın gedişi zamanı baş vermiş neqativ hallar barədə Təhsil Nazirliyinə operativ məlumat verilməsi məqsədilə "İmtahan qərargahı", imtahanlara nəzarət etmək məqsədilə nəzarət qrupu yaradılıb.

Tələbələrə təyin olunan təqaüdlərdən də danışan rektor Yusif Yusibov bildirib ki, Nazirlər Kabinetinin 6 fevral 2016-cı il tarixli müvafiq qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"na uyğun olaraq semestr nəticələrinə görə ümumi orta müvəffəqiyyət göstəricisinə (ÜOMG) görə ən yüksəkdən başlayan sıralamaya uyğun növbəti semestrdə təqaüd alacaq tələbələrin siyahısı müəyyən edilir. Bu zaman ÜOMG-si yüksək olan ödənişli əsaslarla təhsil alan tələbələrə də təqaüd təyin edilir. Həmçinin universitet tələbələrinin təhsilə marağını artırmaq məqsədi ilə semestr nəticələrinə əsasən fakültələrdə stimullaşdırıcı (məqsədli) təqaüdlər təsis edilərək xüsusi fəal tələbələrə verilmişdir. Tədbirdə çıxış edən universitetin İmtahan aparatının rəhbəri Vasif Həsənov imtahanların texniki təşkili, keçirilməsi qaydası, həmçinin tələbələrin semestr imtahanlarında diqqət yetirilməsi vacib olan məsələlər haqqında gənclərə ətraflı məlumat verib.

Sonda rektor tələbələri şəxsən dinləyib, onları marqlandıran sualları cavablandırıb. Tələbələrin üzləşdikləri çətinliklərin təhsil qanunvericiliyinə uyğun, operativ şəkildə həlli üçün aidiyyəti üzrə konkret tapşırıqlar verib. Səsləndirilən müraciətlərin böyük əksəriyyəti elə yerindəcə həllini tapıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Muradxanlı kəndində səyyar qəbul





**İmişli rayonunda növbəti səyyar qəbul keçirilib. Rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev Muradxanlı kənd inzibati ərazi dairəsində sakinləri dinləyib. Tədbirdə rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət və digər xidmət təşkilatlarının rəhbərləri iştirak etmişlər.**

Rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev çıxışı zamanı bildirdi ki, bu görüşün məqsədi təsdiq edilmiş qrafikə uyğun olaraq cənab Prezidentin tapşırığına əsasən əhali ilə yerlərdə görüşüb, onların problemləri ilə maraqlanmaqdır.

Görüş zamanı rayon icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkə həyatının bütün sahələrində olduğu kimi, sosial-iqtisadi sahədə də yüksək nailiyyətlərin əldə edildiyini bildirdi. İmişli rayonunda görülən abadlıq-quruculuq işlərindən, həmçinin rayon mərkəzində və kəndlərdə sosial xidmətlərin inkişaf etməsindən, ölkə başçısı cənab İlham Əliyevin əhaliyə göstərdiyi diqqət və qayğıdan bəhs edən fikirlər söylədi.

Rayon icra hakimiyyətinin başçısı çıxışında ərazidə yaşayan sakinlərin torpaqlardan səmərəli istifadə etmələri, kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı məsləhət və tövsiyələrini verdi. Əhalini narahat edən problemlərin həlli istiqamətində rayonda həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması üçün görülən işlərdən danışan rayon rəhbəri bildirdi ki, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bundan sonra da davam edəcəkdir.

Sonra vətəndaşların müraciətləri dinlənildi. Kənd sakinləri tərəfindən qaldırılan məsələlər barədə aidiyyəti üzrə müvafiq tapşırıqlar verildi. Kənd sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə, rayon icra hakimiyyətinə öz minnətdarlıqlarını bildirdilər.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# "Ali məktəb tələbələri arasında informatika üzrə Ümumrespublika Olimpiadası"nın qalibləri mükafatlandırılıb

"17 May - Dünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü"nə həsr olunmuş tədbirdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş "Ali məktəb tələbələri arasında informatika üzrə Ümumrespublika Olimpiadası"nın qalibləri mükafatlandırılıb.



Qeyd edək ki, olimpiadanın yarımfinal mərhələsi 27 aprel 2019-cu il tarixində Bakı Mühəndislik Universitetində keçirilib və yarımfinalda 24 ali təhsil müəssisəsindən 69 komanda (hər komanda 3 tələbə) iştirak edib. 17 ali təhsil müəssisəsinin ən yaxşı nəticə göstərmiş 1 komandası final mərhələsinə vəsiqə qazanıb.

Final mərhələsi 4 may 2019-cu il tarixində AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda keçirilib.

Olimpiada beynəlxalq "ACM İCPC" (Ali məktəb tələbələrinin beynəlxalq proqramlaşdırma müsabiqəsi) qaydaları üzrə keçirilib. Final mərhələsinin nəticələrinə əsasən, 1-ci yerə Bakı Mühəndislik Universitetinin "BEU Programmers" (Ülvi Aslanlı, Əyyub Nəcəfzadə, Nicad Hüseynov, komanda rəhbəri - Etibar Seyidzadə) komandası layiq görülüb. 2-ci yerə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının "MSU_BAKU_3", 3-cü yerə ADA Universitetinin "ADA-Fi-ri-J", 4-cü yerə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "ADNSU 1" komandası layiq görülüblər.

Qaliblər (I-IV yerlər) "Azercell" operatoru və "BestComp Group" şirkətinin təqdim etdiyi qiymətli hədiyyələr, habelə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Fəxri Fərman və diplomlarla mükafatlandırılıb.

Tədbirdə Milli Aviasiya Akademiyasının "NAA3", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "DİA-1", Bakı Ali Neft Məktəbinin "BHOS2", Bakı Dövlət Universitetinin "BSU1" komandaları Fərqlənmə Sertifikatı ilə təltif olunublar.

Olimpiadanın yarımfinal və final mərhələlərinin keçirilməsinə texniki dəstəyə görə Bakı Mühəndislik Universitetinin əməkdaşları Əli Həsənov, Rauf Süleymanlı, Kamil Əhmədov Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təşəkkürnamə ilə təltif olunublar.

**BMU-nun Mətbuat Xidməti.**

*Yasamal rayonu*

# Gənc rəssamın fərdi sərgisi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin tələbəsi Fidan Cəfərovanın "Arif Aziz Art House" sənət evində "N.A.R - Nəcib Ağacın Röyası" adlı fərdi sərgisi keçirildi.

Tədbiri giriş sözü ilə Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova açaraq bildirdi ki, 1999-cu ildə Bakı şəhərində anadan olan Fidan Cəfərova hələ kiçik yaşlarından rəssamlıqla məşğul olmağa başlamış, orta məktəbdə oxuduğu illərdə bir çox sərgi və müsabiqələrdə iştirak edərək qalib olmuş və dəfələrlə fərqləndirici diplomlara layiq görülmüşdür. Fidan Cəfərova hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin interyer-dizayn ixtisası üzrə bakalavr pilləsində təhsil alır. O, Bakı şəhərində keçirilən bir çox sərgi və festivallarda iştirak etmiş və müxtəlif mükafatlara layiq görülmüşdür. Sərgidə təqdim olunan rəngkarlıq və fotoqrafika əsərləri müəyyən bədii məktəbin təsiri ilə yanaşı, artıq gənc rəssamın dəst-xəttinin formalaşmasından, prioritetlərindən xəbər verir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin və YUNESKO yanında "Yeni Era" Dünya Rəssamlıq Akademiyasının dəstəyi ilə keçirilən tədbirdə YUNESKO yanında "Yeni Era" Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvü, qurumun Bakı filialının prezidenti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, Əməkdar İncəsənət Xadimi, Xalq rəssamı, professor Arif Əziz çıxış edərək bildirdi ki, sərginin leytmotivini nar simvolunun fərdi bədii həlli təşkil edir. Gənc tələbə rəssam Fidan Cəfərova narın semantikasını xalq sənətimizin köklərində aşkarlamağa meylli olsa da mövzuya innovativ yanaşmışdır. Ənənəvi şəbəkə texnikasını ağacla yanaşı, yeni materiallarda tətbiq etmişdir.





Sonra sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin dekanı Sevil Kərimova, Azərbaycan Rəssamlar İttifaqının üzvü, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dizayn və dedkorativ tətbiqi sənət kafedrasının müəllimləri Vüqar Əli və Gülnaz Mədətova çıxış edərək sərgidə təqdim olunan əsərlərin Fidan Cəfərovanın yaradıcılıq nailiyyətləri ilə yanaşı, onun fərdi üslubunun formalaşmasını, əldə etdiyi bilik və bacarıqlarını da aydın nümayış etdirdiyini diqqətə çatdırdılar.

Gənc rəssam Fidan Cəfərovanın "Qımıl güzgü", "Qımıl tarşer", "Qımıl kamod", "Benç", "Ölümsüzlük", "Sonsuz həyat", "Partlayış", "Gümüş nar", "Fəsillər", "Memarlıq və xalça", "Danışan xalçalar", "Malıbəyli", Şıxlı" kimi kompozisiyalar, "Fırtına", "Rəng yağışı", "Balerina", "Lələk", "Bakı işıqları", "Sünbül tarlası", "Moruq", "Bənövşə", "Lalələr", "Mavi dəniz", "Nar bağı" adlı akvarellə kətan üzərində işlər və fotoqrafikaya aid "Fərqlilik", "Maraq", "Şəhər xatirələri", "Təbiət", "Gözlənti", "Ahəng", "O an" adlı bir-birindən maraqlı və müxtəlif janrlarda hazırladığı 44 əsər sərgidə nümayiş olundu.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin dekanı Sevil Kərimova Fidan Cəfərovaya "Gənc rəssam" Media mükafatını təqdim edərək ona gələcək işlərində yeni-yeni yaradıcılıq uğurları və nailiyyətlər arzuladı.

Sərgi musiqili-bədii proqramla davam etdirildi.

**Qədir ASLAN,**
**"Respublika".**

# Hərracda 98 dövlət əmlakı özəlləşdirməyə çıxarıldı

Əmlak Məsələləri Dövlət Komitəsinin təşkil etdiyi açıq və şəffaf hərraclarda hər kəsin rahat iştirakı təmin olunur. Hərraclara sənaye, aqrar, inşaat, xidmət və digər sahələr üzrə cəlbedici dövlət əmlakları çıxarılır. İnvestorlar geniş seçim və rahat iştirak imkanlarından istifadə edərək ölkənin müxtəlif regionlarında yerləşən dövlət əmlaklarını özəlləşdirə bilir.

Komitə tərəfindən növbəti belə hərraclardan biri iyunun 18-də keçiriləcək. İştirak etmək istəyən şəxslər üçün budəfəki hərracda 98 dövlət əmlakı üzrə seçim fürsəti yaradılıb. Bu dövlət əmlaklarından 32-si kiçik dövlət müəssisə və obyekti, 15-i səhmdar cəmiyyətinin dövlətə məxsus səhm paketi, 48-i nəqliyyat vasitəsi, 3-ü isə qeyri-yaşayış sahəsidir. Özəlləşdirməyə çıxarılan kiçik dövlət müəssisələrinin ümumi faydalı sahəsi 7.5 kvadratmetr ilə 9 min 297 kvadratmetrdir. Ucar şəhəri, H.Sultanov küçəsindəki dövlət müəssisəsinin ümumi faydalı sahəsi 189.4 kvadratmetrdir. Tikiş fabrikinin filialı olan əmlak 5 min kvadratmetrlik torpaq sahəsi ilə birgə özəlləşdirməyə çıxarılıb. Sərmayəçi tərəfindən investisiyanın yatırılması və yenidən qurulması bu dövlət əmlakını yüngül sənaye sahəsində gəlirli obyektə çevirə bilər.

Budəfəki hərraca səhmdar cəmiyyətlərinin səhmlərinin 30% ilə 45% arasında olan səhm paketləri də çıxarılıb. Səhmdar cəmiyyətlərindən 8-i aqrar, 5-i nəqliyyat, 2-si isə sənaye sektorlarına aiddir. Onlar arasında "Anar", "Zaqatala Fındıq", "Xəzər Avtonəqliyyat" kimi müəssisələr var.

Özəlləşdirməyə çıxarılan qeyri-yaşayış sahələri paytaxtda, Abşeron rayonunda və Gəncə şəhərində yerləşir. Xırdalan şəhəri, 27-ci məhəllədəki qeyri-yaşayış sahəsinin ümumi faydalı sahəsi 53.2 kvadratmetrdir. Xidmət və ofis obyekti kimi istifadəyə uyğun olan dövlət əmlakı üçün təyin olunan ilkin qiymət 14 min manatdır.

Hərracda avtomobil sahibi olmaq istəyənlər üçün də geniş seçim imkanları var. Belə ki, buraxılış tarixləri 1995-2007-ci illər aralığında olan nəqliyyat vasitələri arasında "Nissan", "Hyundai", "Ford", "Daewoo" və digər markalardan olan avtomobillər var. Bu növ dövlət əmlakları üçün təyin olunan ilkin qiymət 1000 manat ilə 6 min manat arasındadır.

Əmlak Məsələləri Dövlət Komitəsi yerli və xarici investorları, sahibkarları, iş adamlarını və mülkiyyət sahibi olmaq istəyən hər bir kəsi özəlləşmədə fəal iştirak etməyə dəvət edir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Heydər Əliyev Fondu müqəddəs Ramazan ayında rayonlarda iftar süfrələri təşkil edir

**Heydər Əliyev Fondu mayın 22-də müqəddəs Ramazan ayında Şamaxı rayonunda iftar süfrəsi açıb. Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən Ramazan ayı ərzində bir sıra rayonlarda iftar süfrələri təşkil olunacaq.**

AZƏRTAC xəbər verir ki, Şamaxı Cümə məscidində açılan iftar süfrəsində 300-ə yaxın rayon sakini iştirak edib.

Bildirilib ki, respublikamızda dövlət və din birbirindən ayrı olsa da, Azərbaycan İslam dininə, İslam mədəniyyətinə mənsub ölkədir. Ruzi-bərəkət, həmrəylik, dostluq-qardaşlıq, sevgi və mərhəmət ayı hesab olunan Ramazan digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Bu gün Azərbaycan dünya ölkələri üçün tolerantlıq nümunəsidir. Ölkəmizdə birlik və sabitlik hökm sürür, dini məbədlər təmir və bərpa olunur, islami və milli mənəvi dəyərlər qorunur.

Həmçinin Ali Baş Komandanın rəhbərliyi ilə bütün torpaqlarımızın tezliklə işğaldan azad olunacağına, o torpaqlarda da dini ayinlərin icra ediləcəyinə və iftar süfrələrinin açılacağına əminlik ifadə olunub.

İftar süfrəsi ətrafında on bir ayın sultanı olan Ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb. Ölkəmizə əmin-



amanlıq və sülh arzulanıb, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhuna dualar oxunub.

Qeyd edək ki, Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa olunub. 1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilən mart qırğınları zamanı Şamaxıda da soyqırımı aktı həyata keçirilib. Ən böyük qırğın Cümə məscidində baş verib. Şamaxılıların Allah evi kimi məscidə sığındığını görən ermənilər burada yanğın törədərək, təqribən 1700 günahsız insanı qətlə yetiriblər. Sovet dövründə məlum səbəblərdən təyinatı üzrə istifadə edilməyən məscid məhv olmaq təhlükəsi ilə üzləşib. Azərbaycanın bütün sahələrdə inkişafına, o cümlədən milli mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət və qayğı ilə yanaşan ulu öndər Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə 1980-ci ildə bu tarixi abidə təmir edilib.

Şamaxı Cümə məscidi daha sonra Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir olunub. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidin açılış mərasimində iştirak edib.

**AZƏRTAC**



# AZƏRTAC "China Daily" qəzetinin fəxri media tərəfdaşı mükafatına layiq görülüb

**Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC Çinin ingilis dilində nəşr olunan nüfuzlu gündəlik "China Daily" qəzetinin mükafatına layiq görülüb.**




"China Daily" qəzeti ilə son bir ili əhatə edən sıx əməkdaşlığına, iki ölkə arasında informasiya mübadiləsindəki fəallığına, qəzetin həyata keçirdiyi layihələrdə fəal iştirakına görə AZƏRTAC-a "Fəxri beynəlxalq media tərəfdaşı-2019" mükafatı təqdim olunub.

Qeyd edək ki, ümumilikdə, 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" təkcə Çində deyil, regionda, eləcə də dünyada ingilis dilində nəşr edilən ən nüfuzlu qəzetlərdən biridir. Ümumi tirajı bir milyon nüsxə olan qəzetin xarici ölkələrdəki oxucularının sayı yerli oxuculardan daha çoxdur. Bu da qəzetin qlobal səviyyəli nəşr olduğunun göstəricisidir.

AZƏRTAC ilə "China Daily" qəzeti ara-




sında əməkdaşlığa dair anlaşma Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanovun Şanxay Əməkdaşlıq Təşkilatının birinci Media Sammitində iştirak etmək üçün ötən ilin iyununda Pekinə səfəri çərçivəsində "China Daily" qəzetinin rəhbərliyi ilə görüşündə əldə olunub.

**AZƏRTAC**


## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsi

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

